# "GƏLƏCƏYƏ ÖN SÖZ"

## VI. Mətbuat, TV və jurnalistika problemləri

## 3. Açıq savaş - sözü demək gücü

*Heç şübhəsiz, Q.Məhərrəmlini daha çox məhşurlaşdıran, daxili potensialını üzə çıxaran, onu həm də mahir televiziya bilicisi, bacarıqlı idarəçi, təşkilatçı və menecer kimi ictimaiyyətə tanıdan "Səhər" musiqi-informasiya proqramı oldu. Azərbaycan tamaşaçısı uzun illər hər gün sabahını "Səhər"lə açdı, ona yüksək zövq və milli ruh aşılayan bu verilişi sevdi, ona bağlandı. 1995-ci ilin avqustundan Azərbaycan Televiziyasında efirə çıxan bu proqramı yaradan, formalaşdıran və 12 il ona uğurla rəhbərlik edən Q.Məhərrəmli səhər verilişi layihəsi ilə milli televiziyamızda ciddi keyfiyyət mərhələsinin əsasını qoymuş oldu. Bu sözləri eynilə onun müxtəlif illərdə hazırlayıb efirə verdiyi "Təfsilat" (1995-96) və "Gerçəklik" (1999-2000) müəllif proqramları haqqında da demək olar. Onun parlaq fərdiliyi, dərin bilik və bacarığı, insanlarla ünsiyyət qurmaq qabiliyyəti, xeyirxahlığı, güclü mənəvi keyfiyyətləri bu verilişlərdə özünü büruzə verdiyi üçün tamaşaçı yaddaşında dərin iz salıb.*

*Qüdrət PİRİYEV,*
*Əməkdar mədəniyyət işçisi*



*Əli Rza XƏLƏFLİ*

Bəri başdan belə bir fikri vurğulamaq istəyirəm ki, təcrübəli jurnalistlərin sözün bütün imkanlarından istifadə ilə, məqsədi, məramı kifayət qədər açıqlığı ilə çatdıran mətbuat işçilərinin gördükləri, şahidi olduqları hadisələri qələmə almaları heç də universitet auditoriyalarında öyrədilən jurnalistika dərslərindən az əhəmiyyətli deyil. Müəyyən həyat yolu keçmiş, xalqın tarixi taleyində heç vaxt silinməyən iz buraxmış hadisələrin şahidi olan müəllif hətta xatirələrini yazanda belə yeni nəsil yazarlar üçün (jurnalistlər, mətbuat işçiləri) örnək olur. Bədii təfərrüata varmadan məqsədi konkret ifadə etmək, tarixi hadisəni yaddaşda canlandırmaq üçün müəllif istedadından başqa həqiqətə sədaqət prinsipi də xüsusi əhəmiyyət kəsb edir.

Olub-keçmiş hadisələri qələmə alarkən Qulu Məhərrəmli yaxşı bilir ki, onun oxucuları həm də tələbələridir. Bu tələbələr təkcə auditoriyada onu dinləyənlər deyil, artıq həyat yollarında öz güclərini, jurnalist bacarıqlarını göstərməkdə olan nəsil də var.

Qulu Məhərrəmli, şübhəsiz, yazılarında həqiqətə sadiqlik dərsi keçir. Romanlara sığası hadisələri məhdud zamana yığa bilir və bununla da həm oxucuya vaxtı ilə məlum olmayan informasiyanı çatdırır, həm də onu ümumi dəyərlər ətrafında səfərbər edir.

Hər hansı bir jurnalist yalan yazırsa, sözü pafosa bükürsə az müddətə diqqəti cəlb edə bilər, sonra hər şey üzə çıxır. Qar əriyən kimi qara nöqtələrin görünməsi nə qədər təbiidirsə, həqiqət olmayanın aşkarlanması da bir o qədər təbiidir. "Susdurulmuş televiziya" (18.01.2014) yazısı həyatımızdan keçmiş məşhur inqilabi dövrün (20 Yanvar ərəfəsi) hadisələrindən bəhs edir. Bir az da dəqiqləşdirsək, həmin dövrdə televiziyanın enerji blokunun partladılması ilə susdurulmuş ekranın taleyindən həmin vaxt yeganə informasiya mənbəyi olan "danışan radio"dan və Ali Sovetin sədri Elmira Qafarovanın məşhur bəyanatından söhbət gedir.

Müəllif əvvəlcə radionun işə salınmasından, gərgin hadisələrin fonunda komendant rejiminin ələ keçirdiyi radionun fəaliyyətindən söhbət açır. Hətta radionun necə işə salınmasını, bütün ənənələrin ləğv edilməsini, radio verilişlərinin başlanma etiketlərinin pozulmasını - bütün bunları canlı şahidin təsviri olaraq verir. Xalqın düşdüyü psixoloji gərginlik, 20 Yanvar hadisələri zamanı 131 nəfərin öldürülməsi, 742 nəfərin yaralanması, itkin düşənlər və s. kimi məlumatları yazının canlılığı sayəsində təzədən həyəcanla oxuyuruq.

Mövcud rejimin qəddar mahiyyətini xüsusilə bir abzasda bütün kəskinliyi ilə üzə çıxarır: *"Səhər tezdən radioya işə gələn əməkdaşlar mərkəzi aparat sexində avtomatla qarşılandılar. Bütün studiyaların qarşısında üz-gözlərindən zəhrimar yağan əsgərlər keşik çəkirdilər. Artıq radionun diktor otağı da zəbt olunmuş və burada hərbi senzor fəaliyyətə başlamışdı. Senzor bəyan etmişdi ki, hələlik diktorlara ehtiyac olmayacaq, materialları efirə özləri oxuyacaqlar. Aydın idi ki, onlara inanmırdılar. Hərbçilər arasında Azərbaycan dilində danışanlar da var idi. Radioya nəzarət edən polkovnik V.Pankovun yanında dil qəfəsə qoymayan və ədaları yerə-göyə sığmayan Etibar adlı idbar bir praporşik daha fəal görünürdü. Bu, səhər hərbi komendantının ilk "rəsmi" məlumatlarını höccələyə-höccələyə efirə oxuyan, həmin köntöy və zəhərli səsin sahibi E.Əzəmətov idi".* Müəllif rus hərbiçilərinin, özü demiş, yerə-göyə sığmayan əməllərini, Etibar Əzəmətov obrazında isə xəyanətkar tipini qələminin kəskinliyi ilə yaradır.

Biz əvvəllər də milli mənafe, vətən sevgisi haqqında geniş danışmışıq. Komendant rejimi mühitində radio jurnalistlərinin fədakarlığı haqqında da az-çox məlumatımız var. Amma Qulu Məhərrəmli bu fədakarlığı xüsusi bir faktla əbədiləşdirir: Elmira Qafarovanın məşhur bəyanatı haqqında ətraflı yazmağı ilə: *"Sanki bütün dünyadan kömək və təsəlli istəyən Azərbaycan dinləyiciləri üçün əsas məlumat mənbəyi "Azadlıq" radiosu idi. Unudulmaz jurnalist Elmira Əmrahqızının o vaxt Bakıdan verdiyi ürəkdağlayan reportajları, Mirzə Xəzərin isə Münhendən təəssübkeşliklə yoğrulmuş şərhləri insanlara təskinlik, ümid və bir az da inam bəxş edirdi. Azərbaycan efirində yalnız matəm musiqisi və "xalqı ovudan" çıxışlar səslənirdi. Lakin qəflətən radio dalğalarında, sanki ildırım oynadı, gurultulu bir şimşək çaxdı, gözlənilməyən Ali Sovetin sədri Elmira Qafarovanın kəskin bəyanatı efirdə səsləndi".* İlk baxışdan elə gələ bilər ki, burada elə də çətin bir şey yoxdur. Amma dövrün şahidləri - həmin dövrün hadisələrinin içərisində olanlar yaxşı bilir ki, Elmira Qafarovanın bəyanatı necə böyük çətinliklərlə qarşılaşmış, hansı manelələri dəf edərək efirə çıxmışdı. Xüsusilə, onun bəyanatının son cümlələri heç vaxt yaddan çıxan deyil: *"Tökülən günahsız qanlar üçün bütün məsuliyyət bu qərarı qəbul etmiş və bilavasitə onu qanlı şəkildə gerçəkləşdirmiş SSRİ orqanlarının və onların vəzifəli şəxslərinin üzərinə düşür. Azərbaycan xalqı oğul və qızlarının bu cür faciəli surətdə həlak olmasını heç kəsə bağışlamayacaq".* Həmin dövr üçün çox kəskin bəyanat idi. Təkcə elə bu bəyanatın mətninə görə Azərbaycan xalqı Elmira Qafarovanın adını heç vaxt unutmamalıdır.

Bu qeydlər təkcə bir xatirə yazısı deyil. İfadəmiz bir qədər təkrar kimi səslənsə də, yenə də fikrimizi belə bir inamla bitiririk: bu yazı müəyyən ekstremal vəziyyətlərdə jurnalistlər üçün kifayət qədər dərs mahiyyəti daşıyır.

Qulu Məhərrəmli ustad jurnalist kimi sənətinin tələb etdiyi bütün sahələrdə fəaliyyəti ilə böyük təcrübə yolu keçib. Onun kütləvi informasiya sahəsində bu və ya digər müddətə çalışmadığı sahə yoxdur. Amma hər halda o, televiziya jurnalisti kimi daha çox tanınır. Bu sahənin həm praktik bilicisidir, həm də nəzəri bilgi sahibidir. Ona görə də arabir televiziyanın mənəvi-psixoloji problemləri ilə bağlı hər hansı bir gərginlik yarananda seyirçi qalmır, mütləq münasibət bildirir.

Biz televiziyalarımızın həyatından müxtəlif epizodları xatırlada və narazılıqlarımızı bildirə bilərik. Ancaq Qulu Məhərrəmli *"TV-lərin pərişan halı"* (15.02.2014) publisistik qeydlərində bu pərişanlığı yaradan səbəbləri xüsusilə açıqlayır və qeyd edir ki, *"istənilən cəmiyyətdə TV təkcə mədəniyyətin yox, həm də ictimai düşüncənin, əxlaq və mənəviyyatın göstəricisidir, bir növ, barometrdir. Cəmiyyətə təsir etmək, insanları maarifləndirmək, onları daim doğu yola yönəltmək vasitəsidir. Amma yararsız əllərə düşəndə bu vasitə kütləvi qırğın silahı qədər təhlükəli olur. Həmin silahın hədəf götürdüyü ilk nişangah isə xalqın, cəmiyyətin mənəvi dəyərləri olur. Bu gün bizdə, zəif də olsa, çalınan həyəcan təbili məhz TV-lərin yüzillər boyu formalaşmış dəyərlərə hücum çəkməsi ilə bağlıdır. "TV əxlaq və mənəviyyatdan başlayır" ifadəsi elə-belə deyilməyib. Nüvəsində mənəvi ölçülər dayanmayan telekanal heç vaxt səmimi tamaşaçı rəğbəti qazana bilməz".* Televiziyaların pərişanlığının səbəblərinə gəldikdə isə, əlbəttə, birinci səbəb asılılıqdır. Bunun arxasınca digər səbəblər də gəlir. Ayrı-ayrı verilişlərin müəllifləri, aparıcıları daha çox özlərinə uyğun gələn *"müştərilər"* axtarırlar. Və axırda Qulu Məhərrəmli ABŞ prezidenti Con Kennedinin belə bir sözünü xatırladır ki, müharibədən sonra Amerika xalqının xarakterini televiziya formalaşdırıb.

Zənnimcə, aydındır, Qulu Məhərrəmli bilmək istəyir ki, görəsən bizim televiziyalarımız xalqın xarakterini formalaşdırmaq gücündədirmi?

*"Sosial mediamız, jurnalistikamız və əxlaqımız"* (20.03.2014) məqaləsinin başlığındaca üslubuna uyğun sualla hədəfi dəqiq göstərir: *"Bunların bir-birinə oxşaması nədəndir?"*. Doğrusu, bu məqalədə kimlər üçünsə mübahisəli görünə biləcək məqamlar da var. Sözünü mətbuatda deyə bilməyən, az-çox cümlə qurmaq gücündə olan hər kəs sosial medianı, xüsusilə, fb-ni əsas meydan hesab edir. Və burada zaman-zaman formalaşmış mətbuat ənənələrinin hamısını ayaqlayaraq necə gəldi meydan sulamaq imkanı var. Bu da, əlbəttə, Qulu Məhərrəmlini narahat edir və jurnalistikanın klassik pedaqoqu kimi özünün mənəvi məsuliyyətini yaxşı bilir. Qaydasızlığın, müəyyən mənada əxlaqsızlıq həddinə çatmış söz çılpaqlığının əleyhinə durur. Etiraz edənlər isə yəqin ki, öz meydanlarının daralmağını istəməyənlərdir. Hər halda Qulu Məhərrəmli jurnlistika ustadı kimi jurnalistikanın əxlaqdan ayrılmazlığını yaxşı bilir, hətta sərbəst *"jurnalist"* kimi fəaliyyət göstərənləri də əxlaq qaydalarına tabe olmağa çağırır.

Maraqlı bir məqam var. Əxlaqsızlığın sosial media vasitəsi ilə müxtəlif şəkillərdə təbliğatı gedir, bu təbliğatın bir növünü də Qulu Məhərrəmli doğru olaraq ifşa edir: *"Axmaq nümunə həmişə tez yayılır. Məsələn, hardasa bir çoban görür ki, ölkə televiziyalarının hansındasa kiminsə gizli kamera ilə çəkilmiş yataq səhnəsini göstərirlər, hətta əvvəlcədən onun anonsunu da verirlər ki, çox adam baxsın. Çoban qardaş bunu yadında saxlayır və əlverişli şərait düşən kimi TV-nin ona öyrətdiyi bu "metodla" hər hansı səbəbdən çoxdan yaxa qurtarmağa çalışdığı öz arvadının intim həyatını videoya çəkir. Sonra da ortaya çıxardığı "məhsulu" başqa bir telekanala təklif edir, həmin kanal da bu əxlaqsızlığı yayımlayır...".* Professorun narahatlığı təbiidir və əslində bu da az-çox cəmiyyəti görən, vəziyyəti anlayan hər kəsin narahatlığıdır.

Hər halda Qulu Məhərrəmli əxlaqsızlığın televiziyada mövcud şəkildə ifşasının əslində əxlaqsızlığın təbliğatına çevrilməsini tənqid edir. Onun etirazının mahiyyətində də dayanan budur.

*"Mətbuat dərdlərimizi niyə demir?"* (22.07.2016) publisistik qeydləri mətbuatdan yavaş-yavaş qeybə çəkilmiş tənqidin yoxluğu ilə bağlıdır. Tənqid olmayan cəmiyyətdə hansı inkişafdan danışmaq olar? Professor da tənqidi cəmiyyət üçün, cəmiyyətin mənəvi sağlamlığı, inkişafı üçün mühüm vasitə hesab etdiyindən bu yazısı ilə sanki həyəcan təbili çalır.

Mətbuatın ruhən ölməsi, əslində, jurnalistin həqiqəti yazmaqdan qaçması ilə bağlıdır. Əgər jurnalist həqiqəti yaza bilmirsə, bədbəxtliyi xoşbəxtlik fonunda təqdim edirsə, onun yazısı heç kimi maraqlandırmayacaq və nəticədə professorun özünün dediyi kimi, mətbuatın özü dərd içində çabalayacaq.

Ola bilsin ki, bəzi məqamlarda Qulu Məhərrəmlinin tənqidi yanaşmalarını kimlərsə düzgün qiymətləndirə bilməsin. Müxalifətçiliyi az qala, qorxulu bir bəla kimi təsəvvür edənlər ziyalı müxalifətçiliyini də başa düşə bilməzlər. Bütün hallarda ziyalı müxalifliyi siyasi müxaliflik deyil və bunu, əlbəttə, düzgün başa düşmək lazımdır.

*05.10.2021*